*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 69-72* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.69*

# Qəzəl janrının təşəkkülü

**Lalə Ələkbərova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: elekberova.lale@mail.ru

**Annotasiya.** Məqalədə qəzəl janrının Azərbaycan ədəbiyyatında təkamülü izlənilir. Ümumşərq ədəbiyyatının bir parçası olan Azərbaycan ədəbiyyatına fars ədəbiyyatı vasitəsilə ərəb ədəbiyyatından keçmiş bu janrın intişarı Nəsiminin və Lütfinin irsi ilə bağlıdır. Azərbaycan ədəbiyyatında qəzəlin pik nöqtəsi Füzuli yaradıcılığı ilə əlaqəlidir. Füzuli ədəbi məktəb yaratmaqla qəzələ yeni nəfəs gətirmişdir. Məqalədə qəzəlin XX əsr Azərbaycan ədəbiyyatına qədər keçdiyi mərhələlər təhlil olunur.
**Açar sözlər:** qəzəl, fars ədəbiyyatı, Füzuli, obraz, janr

**Məqalə tarixçəsi:** göndərilib – 12.02.2024; qəbul edilib – 28.02.2024

# Formation of ghazal genre

**Lala Alakbarova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: elekberova.lale@mail.ru

**Abstract.** The article traces the development of the ghazal genre in Azerbaijani literature. Azerbaijani literature, which is a part of Middle Eastern literature, is related to the legacy of Nesimi and Lutfi, who developed this genre through Persian literature via Arabic literature. The peak of the gazelle in Azerbaijani literature is related to the work of Fuzuli. Fuzuli established a literary school and gave a new breath to the ghazal. The article examines the stages that the gazelle went through until the 20th century Azerbaijani literature.
**Keywords:** ghazal, Persian literature, Fuzuli, image, genre

**Article history:** received – 12.02.2024; accepted − 28.02.2024

## Giriş / *Introduction*

Şərq ədəbiyyatının ən geniş yayılmış forması olan qəzəl Azərbaycan ədəbiyyatında da şairlərin ən çox müraciət etdikləri janr olmuşdur. İlk olaraq ərəb ədəbiyyatında yaranmış bu janr Azərbaycan ədəbiyyatına keçdikdən sonra XVI əsrdə Füzuli vasitəsilə ən aktual janr olmuşdur.

Qəzəl ümumşərq ədəbiyyatının ən sevilən və ən çox müraciət olunan forması olub, sevginin, lirik hisslərin təsviri ilə bağlıdır. Mənbələrə görə, ilk olaraq ərəb ədəbiyyatında yaranmış bu janra ərəb şeirində müxtəlif şəkillərdə rast gəlinir. Ərəb mənşəli qəzəl sözü tərcümədə *“qadınlarla sevgi ilə bağlı söhbət etmək” kimi qeyd olunur. Mənbələrdə ilk dəfə qəzəlin tərifinə IX-X əsrlərdə yaşamış Qüdamə ibn Cəfərin “Nəqd-əşşer” əsərində rast gəlinir”* [7, s.12].

## Əsas hissə / *Main part*

Qəzəl yazmaq ilk baxışda asan görünə bilər. Lakin eşqdən, məhəbbətdən bəhs edən fikirləri janrın tələbinə uyğun qaydada sıralamaq qəzəl hesab olunmur. Çünki "*Qəzəl yazmaq, lirik şeir yazmaq, insan qəlbinin daxili aləminə vaqif olmaq və onun incəliklərini duyub ifadə etmək"* [6, s.31], yəni əsl qəzəl yazmaq hər şairə qismət olmur. Qəzəl yazan şair o qədər həssas qəlbə malik olmalıdır ki, həm aşiqin, həm də məşuqənin həyəcanını, ürək çırpıntılarını duya bilsin.

XII əsrdən etibarən farsdilli ədəbiyyatda formalaşan bu janr fars ədəbiyyatında XIV əsr şairi Hafiz Şirazi ilə pik nöqtəyə çatmışdır.

Klassik poeziyada, divan ədəbiyyatında, eləcə də Azərbaycan ədəbiyyatında qəzəlin xüsusi yeri var. Farsdilli Azərbaycan poeziyasında Xaqani, Nizami, türkdilli şeirimizdə Həsənoğlu, Nəsimi, Kişvəri, Füzuli və s. kimi görkəmli şairlər qəzələ gözəl nümunələr yaradıblar. Azərbaycan ədəbiyyatında qəzəlin ən gözəl nümunələri isə Füzuli yaradıcılığına aiddir. Şairin qəzəl janrında yazdığı lirik əsərləri onun qəzəl ustadı kimi tanınmasına səbəb olmuşdur. Dos. Paşa Kərimov böyük özbək şairi Əlişir Nəvainin poeziyamıza təsirinin kifayət qədər güclü olduğu zamanda Füzulinin ədəbiyyat meydanına çıxaraq şeirimizdə oynadığı rol barədə yazır: *"Böyük özbək şairi Əlişir Nəvainin lirik poeziyamıza təsirini zaman ardıcıllığı ilə izlədikdə belə bir qanunauyğunluğu müşahidə edirik: XVII əsrin əvvələrində Əmani, Sadiqi kimi şairlərin yaradıcılığında Nəvai təsiri özünü daha güclü şəkildə göstərirsə, yüzilliyin ortalarına, sonlarına doğru Füzulinin ədəbiyyatımızdakı nüfuz, təsir dairəsi daha da artır, bununla bağlı olaraq Nəvai təsiri nisbətən azalır. Bundan belə bir nəticəyə gələ bilərik ki, XVI əsr ədəbiyyatımızda Füzuli kimi şair meydana çıxmasaydı, XVII əsr poeziyamızda Nəvai təsiri, ədəbi dilimizdə cığatay dili elementləri daha çox ola bilərdi"[3, s.336]*. Füzuli lirikasının səmimiyyətini vurğulayan Gibb "*... heç bir türk şairi, həqiqətən Füzuli qədər gözəl qəzəllər yazmamışdır. ...bu yolda onun sələfi olmamışdır*" deyirdi [4, s.59].

XX əsrdə klassik poeziyaya müraciət müxtəlif janrları əhatə etsə də, təbii ki, qəzəl janrına olan maraq daha böyük idi. Məlumdur ki, əgər aparıcı rol qəzələ məxsusdursa, deməli, ən çox təqlid olunan şair də Füzulidir. Nəinki Azərbaycan, eləcə də Yaxın Şərq ədəbiyyatında lirikanın ustadı hesab olunan şair klassik ədəbiyyatda ancaq gözəl qəzəlləri ilə tanınmayıb. Qəzəl yazmağı böyük hünər hesab edən şair qəzəl haqqında qiymətli fikirlər söyləyib. Anadilli divanının dibaçəsində yazır:

*Qəzəl bildirir şairin qüdrətin,*
*Qəzəl artırır nazimin şöhrətin.*
*Gönül, gərçi əşarə çox rəsm var,*
*Qəzəl rəsmin et cümlədən ixtiyar*
*Ki, hər məhfilin zinətidir qəzəl,*
*Xirədməndlər sənətidir qəzəl.* [2, s.30]

Qəzəlxan şairlərimiz bu gün də Füzulinin bu sözlərini rəhbər tutur, bu janrda yazdıqları şeirləri ilə böyük sənətkarın ənənələrini davam etdirirlər. Prof. Azadə Rüstəmova Füzulinin Azərbaycan qəzəlçiliyindəki rolu, onun özündən sonrakı şairlərə təsiri barədə yazır: *"Üç dildə ecazkar sənət nümunələri yaradan Məhəmməd Füzuli qəzəlləri türkdilli xalqların qəzəl ədəbiyyatında xüsusilə mühüm mərhələ sayılır. Azərbaycan dilində qəzəl Füzuli yaradıcılığı ilə öz uca dağ zirvəsini fəth etdi. Yüzilliklər boyunca Füzuli müaqiblərinin böyük şairin "sehri ilə tilsimlənməsi" təsadüfi deyil... Füzuli Azərbaycan dilində qəzəli yeni üslubi tapıntılarla zənginləşdirdi, ona yeni təravət, yeni rəng və lətafət gətirdi. Azərbaycan ədəbi-bədii dilinin tarixi inkişaf yollarında Füzuli qəzəlləri müstəsna əhəmiyyətli rol oynadı"* [7, s.62-63].

Türkdilli ədəbiyyata farsdilli ədəbiyyat vasitəsilə yol tapan bu janrın Azərbaycan ədəbiyyatında intişarının Nəsiminin və Lütfinin adı ilə bağlı olduğu və onlara qədər yazılan əsərlərin zəmanəmizə gəlib çatmadığı göstərilir [9, s.52-53]. Azərbaycan ədəbiyyatında qəzəlin təşəkkül tarxi deyərkən Həsənoğlu-Füzuli xətti üzrə araşdırma aparılır. Təsadüfi deyil ki, tədqiqatçı V.Yusifli Həsənoğludan Füzuliyə qədər olan dövrü *"Azərbaycandilli qəzəlin təşəkkülü və formalaşması mərhələsi"* [8, s.20] kimi göstərmişdir. Çünki məhz Füzuli yaradıcılığında qəzəl tək Azərbaycan ədəbiyyatında deyil, ümumşərq ədəbiyyatda öz çiçəklənmə dövrünü yaşadı.

Qəzəl məna, məzmun zənginliyi, sənətkarlıq xüsusiyyətləri ilə yüksək bədii estetikası ilə seçilən Füzuli irsinin özülünü təşkil edir. Füzuli ədəbi məktəbi poeziyanın bədii xüsusiyyətlərini yüksəltməklə yanaşı, bu məktəblə dilimizin incəliklərini, bədii estetik xüsusiyyətlərini aşkara çıxartmaqla qalmamış, eyni zamanda klassik ədəbiyyata yeni ab-hava gətirmişdir. Füzuli məktəbinin məna zənginliyi özünü bütün Şərq ədəbiyyatında doğruldaraq əskilmiş ənənələrə yeni forma və məzmun geyindirmiş, bəsit Şərq obrazlarının yerini yeni formatda daha cəsur, ədalətsiz cəmiyyətə qarşı daha hünərli türkləşmiş obrazlar almışdır. Bu baxımdan şairin Leylisi, yaxud bir qətrə ab üçün xəncər çəkən gözəlləri artıq əzilmiş Şərq qadınınından çox, namusu ilə aləmə səs salmış türk gözəlləridir. Şərq ədəbiyyatının bu cür köklü dəyişdirilməsi ənənəsi bilavasitə Füzuli irsinin danılmaz təsiri ilə bağlıdır.

Füzuli ədəbi məktəbinin XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında Qövsi Təbrizi və Saib Təbrizi xüsusilə seçilir. Qövsi Füzuli ədəbi irsini yaxşı mənimsəyib yaradıcılığında əks etdirdiyi aydın görünür. Lakin bununla yanaşı, Qövsi yaradıcılığı özünəxas sənətkarlıq xüsusiyyətləri ilə də səciyyələnir: *Azərbaycan dilindəki şeirlərdə diqqəti cəlb edən əsas cəhət Saib Təbrizinin Füzuli təsirində yazan bir sənətkar olmasıdır. Bu təsir, hər şeydən əvvəl, Saibin təkmilləşməsində müsbət rol oynamışdır. Onun Azərbaycan dilində olan qəzəllərinin müəyyən hissəsi doğrudan-doğruya Füzuliyə nəzirə olaraq yazılmışdır* [1, s.145]. Füzuli lirikasının təməlini aşiqanə qəzəllər təşkil edir: *Füzulinin lirikası, hər şeydən əvvəl, sevgi, məhəbbət lirikası, aşiqanə lirikadır* [6, s.45]. Aşiqanə qəzəllərdəki eşq anlayışı insanın hiss və duyğularını əhatə edir.

*Aynurə Mahmudova Füzuli ədəbi məktəbi monoqrafiyasında Füzuli ənənəsinin təsir yollarını kompleks şəkildə XVI-XVIII əsrlər Füzuli ənənəsinin təşəkkülü, XIX əsr – Füzuli ənənələrinin tipikləşməsi və stereotipləşməsi dövrü və XX əsr Füzuli ənənələrinin mifikləşməsi dövrü kimi ümumiləşdirir* [5, s.90].

XIX əsr Azərbaycan lirikasında Füzuli ədəbi məktəbinin ən tanınmış nümayəndəsi Seyid Əzim Şirvanidir. *Seyid Əzim Füzuli ənənələrini yaşadan, lakin bu ənənəni özünün novator-şair keyfiyyətləri ilə zənginləşdirən bir şair idi* [8, s.54]. Aşiqanə qəzəllərin ümumi səciyyəvi mövzuları olan eşq, ayrılıq, qəm, gözəlin tərənnümü öz sabitliyini Seyid Əzim qəzəllərində qorumağına baxmayaraq, o, kapitalist dövrün sənətkarı olduğu üçün dövrün yenilikləri, əhval-ruhiyyəsi onun əsərlərində özünü göstərir. Lakin Füzulinin qəzəllərindən fərqli olaraq, Seyid Əzim Şirvani qəzəllərində sevgilinin təsviri məhdudlaşır və hətta zahiri əlamətləri ilə yanaşı, adı da qeyd olunur. Mənbələrdə Seyid Əzim qəzəllərinin dünyəviləşməsi fikri geniş əksini tapmışdır. XIX əsr Füzuli ənənələrinin davamçısı olan S.Ə.Şirvani qəzəl janrına yeni ruh gətirmiş və qəzəlin dilini sadələşdirərək xalq dilinə yaxınlaşdırmışdır. Lakin onu da qeyd etmək lazımdır ki, S.Ə.Şirvani öz qəzəllərində *"Füzulinin platonik məhəbbətini Seyid Əzim Yer gözəllərinin sevgisi əvəz elədi"* [8, s.55]. Lakin qədim Şərqin mükəmməl qəzəl janrında formalaşmış olan Füzulinin türkləşmiş obrazları ifadə tərzi etibarilə hələ də ərəb coğrafiyasında daşlaşmış obrazlar olaraq qalırdı. S.Ə.Şirvani qəzəli saray ədəbiyyatından ziyadə, xalqın sevə-sevə oxuya biləcəyi şeiriyyət formasına yaxınlaşdırmağı bacarmış, qəzəli daha oxunaqlı, asan başa düşülən, ilahi eşqdən məhəbbət janrına keçməsinə zəmin yaratmışdır.

**Nəticə / *Conclusion***

Qəzəl janrı ilk olaraq IX-X əsrlərdə ərəb ədəbiyyatında yaranmasına baxmayaraq, Füzuli vasitəsilə türk dilində öz geniş intişarını tapmışdır. Əsasını qoyduğu ədəbi məktəb vasitəsilə Füzuli qəzələ yeni nəfəs gətirmiş və onu əsrlər boyunca yaşatmışdır. XIX əsrin görkəmli şairi S.Ə.Şirvani Füzuli ədəbi məktəbinin davamçısı olmuş və qəzələ yeni nəfəs gətirməklə canlandırmışdır.

**Ədəbiyyat / *References***

1. Araslı, H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: Azərbaycan Universiteti, 1956.
2. Füzuli, M. Əsərləri [5 cilddə], c.1. – Bakı: Şərq-Qərb, 2005.
3. Kərimov, P. XVII əsr anadilli Azərbaycan lirikası. – Bakı: Elm və təhsil, 2012.
4. Quliyeva, M. Füzuli zirvəsi – Vaqif başlanğıcı. – Bakı: Elm və təhsil, 2021.
5. Mahmudova, A. Füzuli ədəbi məktəbi. – Bakı: Elm və təhsil, 2019.
6. Mir Cəlal. Füzuli sənətkarlığı / Mir Cəlal. – Bakı: Çaşıoğlu, 2018.
7. Rüstəmova, A. Seçilmiş əsərləri. [2 cilddə] c.2. – Bakı: Elm, 2014.
8. Yusifli, V. Azərbaycan qəzəli. – Bakı: Elm və təhsil, 2018.
9. Юсупов, Р.К. Средневековая персидская и тюркская литература в контексте исламского возрождения. [том 72], № 3. – Алматы: Keruen, 2021.

## Формирование жанра газели

**Лала Алекберова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: elekberova.lale@mail.ru

**Резюме.** В статье прослеживается развитие жанра газели в азербайджанской литературе. Азербайджанская литература, являющаяся частью литературы Ближнего Востока, связана с наследием Насими и Лютфи, которые развивали этот жанр через персидскую литературу и через арабскую литературу. Пик газели в азербайджанской литературе связан с творчеством Физули. Физули создал литературную школу и дал газели новое дыхание. В статье рассматриваются этапы, которые прошла газель до азербайджанской литературы XX века.
**Ключевые слова:** газель, персидская литература, Физули, образ, жанр